**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəis və sıravi heyətinin geyim formasının və fərqlənmə nişanlarının verilmə Qaydalarının, normalarının və istifadə müddətlərinin təsdiq edilməsi barədə**

**AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI**

"Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəis və sıravi heyətinin geyim formasının və fərqlənmə nişanlarının təsvirinin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 28 iyun tarixli, 451 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəis və sıravi heyətinə geyim formasının və fərqlənmə nişanlarının verilmə Qaydaları" təsdiq edilsin (1 nömrəli əlavə).

2. "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəis və sıravi heyətinə geyim forması və fərqlənmə nişanlarının verilmə normaları və istifadə müddətləri" təsdiq edilsin (2 nömrəli əlavə).

3. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəis və sıravi heyətinin geyim formasının və fərqlənmə nişanları ilə təminatı Daxili İşlər Nazirliyinin 2000-ci il üzrə təsdiq edilmiş büdcə xərclərinin smetası çərçivəsində həyata keçirilsin.

4. "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi generallarının, sıravi və zabit polis heyətinin, kursantlarının geyim formaları və inventar əmlakı ilə təmin olunması norması, xüsusi geyim, ayaqqabı və qoruyucu vasitələrin təsviri və bu vasitələrlə təchiz olunma haqqında" 1992-ci il 29 oktyabr tarixli, 587 nömrəli, "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi generallarının, sıravi və zabit polis heyətinin kursantlarının geyim formaları və inventar əmlakı ilə təmin olunması norması, xüsusi geyim, ayaqqabı və qoruyucu vasitələrin təsviri və bu vasitələrlə təchiz olunma haqqında 1992-ci il 29 oktyabr tarixli, 587 nömrəli qərarına əlavələr edilməsi barədə" 1993-cü il 15 dekabr tarixli, 616 nömrəli və "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi generallarının, sıravi və zabit polis heyətinin, kursantlarının geyim formaları və inventar əmlakı ilə təmin olunması norması, xüsusi geyim, ayaqqabı və qoruyucu vasitələrin təsviri və bu vasitələrlə təchiz olunma haqqında" 1992-ci il 29 oktyabr tarixli, 587 nömrəli qərarında dəyişikliklik edilməsi haqqında" 1994-cü il 21 fevral tarixli, 72 nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları qüvvədən düşmüş hesab edilsin.

5. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

**Bakı şəhəri, 1 sentyabr 2000-ci il**

**№ 154**

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 30 sentyabr, № 9.- S. 4016-4017.**